# TARİXİ EPİSTEMOLOGİYA

Qoşqar ƏLIYEV *
Sona HEYDƏROVA **

**Xülasə:** Epistemologiya tarixin düzgün dərk edilməsinə xidmət edir. Bəşər tarixi prosesinin mürəkkəb problemlərinin obyektiv dərkinə və şərhinə yönəlmişdir. Tarixi hadisələrin istiqamətlərinin müəyyənləşdirilməsində başlıca rol oynayan qüvvələrin fərqləndirilməsinə, ayrılmasına cəhd edilir. Tarixi epistemologiya metodoloji bazası əsasında fərdlərin və fərdlər qrupunun nail olmaq istədikləri məqsədləri öyrənir. Tarixin öyrənilməsinə intuisiyaya arxayın olmadan səy göstərir. Tarixlə fəlsəfənin ittifaqının möhkəmləndirilməsinə xidmət edir və səy göstərir. Tarixi epistemologiya öz izahının düzgünlüyünü tarixi faktlara əsaslanaraq sübut edir. Bu mənada epistemologiyanın diskursiv və yeni elmi fənn kimi adlandırmaq olar.

***Açar sözlər:*** *Epistemologiya, klassik epistemologiya, qeyri-klassik epistemologiya, tənqidi epistemologiya, ontoloji problemlər.*

### Historical Epistemology

**Abstract:** The influence of diplomatic relations between groups of the same ancestry or the same ethnic origin is increasing in today's world. A public diplomacy based on kinship, which aims to establish strong ties, solidarity and interaction between a country and its kinsmen in other countries, has become widespread. A country's compatriots gaining power in the places where they live will increase the country's influence and influence in the region, causing them to attach importance to the political organization, life security and cultural rights of their compatriots.

***Key Words:*** *International relations, Public diplomacy, Kinship, Descendancy.*

## Giriş

Problemin şərhinə aydınlıq gətirmək üçün biz klassik epistemologiya və qeyri-klassik epistemologiya anlayışlarının müqayisəli təhlilini verməyi məqsədəuyğun sayırıq. Bu gün həqiqətən də bir sıra müəlliflər klassik epistemologiya (idrak nəzəriyyəsi) fenomeninə yenidən baxılmasının, yenidən dərk olunmasının zəruriliyini qeyd edirlər.

Tədqiqatçıların bir qismi araşdırmalarında qeyri-klassik epistemologiyanın müasir istiqamətlərinin öyrənilməsinə, bunlara yenidən baxılması ideyasına üstünlük verirlər. Bəzi tədqiqatçılar hətta yeni elm sahəsinin "epistemikanın" yaradılmasını təklif edirlər, (Goldman A. Epistemology and Cognition. 1986: p.9) yeni epistemologiya, (Тулмин С. Человеческое понимание. 1984: стр.327) epistemologiyanın yeni anlamı variantlarını araşdırırlar. (Поппер К. Эпистемология без познающего субъекта.1986: стр.439-604)

Ümumiyyətlə, son qırx il ərzində epistemologiya problematikası keçmiş sovet və postsovet məkanında da mərkəzi mövzuların nəzəri əsasını təşkil etmişdir. Maraqlıdır ki, fəlsəfənin məhz bu sahəsində ideologiyanın təsiri daha az olmuşdur və buna görə azadfikirlilik üzrə problemlərin tədqiqi üçün geniş yaradıcılıq imkanları çox açılmışdır. Əvvəllər bizdə klassik idrak nəzəriyyəsi ilə marksist idrak nəzəriyyəsi fərqləndirilirdi. Hazırda isə bəzi filosoflar epistemologiyanın qeyri-klassikliyini onun fənlərarası metodologiya, fəlsəfədə "linqvistik dönüş", sosial epistemologiyanın meydana gəlməsi və digər fəlsəfi yeniliklərlə əlaqələndirirlər.

Bəzən belə mülahizələr də səslənir: ənənəvi epistemologiyanın subyekt, obyekt, reallıq, biliyin subyektivliyi, rasionallıq, həqiqət kimi kateqoriyalar öz mənasını itirmişlər. Biz hesab edirik ki, belə bir müddəa ilə razılaşmaq epistemologiyanı yaşamaq hüququndan məhrum etmək deməkdir.

Lakin gərgin ideoloji transformasiyalar şəraitində keçən diskussiyaların, müzakirələrin gedişi və nəticələri göstərir ki, klassik epistemologiyanın müddəalarının qəbul edilməməsi ideyası müxtəlif mənalarda səsləndiyindən müxtəlif tövsiyələrin verilməsini zəruri edir. Deməli, epistemologiyaya müasir yanaşma, onun yenidən dərk edilməsi sağlam düşüncəyə uyğundur.

* Azərbaycan Tibb Universiteti, İctimai fənlər kafedrası, department_ss@amu.edu.az
** Azərbaycan Tibb Universiteti, İctimai fənlər kafedrası, ismayilovasona@mail.ru

Biz bunu iki amillə izah etmək istərdik. Birincisi, bildiyimiz kimi bəşəriyyət bilik cəmiyyətinə (informasiya cəmiyyətinə) qədəm basmışdır, elə bir cəmiyyətə ki, burada biliyin əldə edilməsi, paylanması və istifadə olunması sosial və iqtisadi prosesləri müəyyən edir, şərtləndirir. Bilik yeni rolunu oynamağa və yeni qiyafədə çıxış etməyə başlayır.

Ümumiyyətlə, bilik fəaliyyətə enerji verən, geniş mənada götürsək, həyatın özünü yaşadan və təkmilləşdirən vasitələrdən biridir. O, yalnız konkret mənada konkret tələbatlar, ümid, imkanlar baxımından dərk edilərkən, ideyalara çevrilir, yəni hərəkət proqramı olur ki, sosial birliklər, son nəticədə mədəniyyətin sosial institutları – elm, siyasət, incəsənət və s. bunun ətrafında təşkil olunur. Effektiv hərəkət etməyə, ən az məsrəflə, qüvvə və vasitə ilə məqsədə nail olmağa imkan yaradan bilik keyfiyyəti, həm onun rasionallığının, həm də onunla bağlı tədqiqinin geniş inkişafı da bu şərtlərlə əlaqədardır.

Əgər keçmişdə idrakın öyrənilməsi ilə fəlsəfə, sonradan isə psixologiya məşğul olurdusa, bu gün bu missiyanı çoxlu sayda xüsusi koqnitiv fənlər, bəzən də koqnitiv elmdə birləşmiş xüsusi koqnitiv elmlər yerinə yetirirlər. Mütəxəssislərin bir çoxu sivilizasiyanın gələcəyini bio və nanotexnologiya, həmçinin informasiya və koqnitiv texnologiya kimi texnologiyaların konvergensiyası ilə bağlayırlar.

İkincisi, biliyin və idrakın yeni anlamının zəruriliyi müasir elmin və fəlsəfənin absolyutizmdən imtina etməsi ilə diktə olunur. Biliyin idrak normalarının relyativliyinin başa düşülməsi, bir çox hallarda biliyin və etiqadların, informasiyanın və dezinformasiyanın fərqləndirilməsinin çətinliyi – bütün bunlar klassik epistemologiyada işlənib hazırlanmış biliyin və idrakın başa düşülməsi vasitələrinin dəyərincə olmamasını müəyyənləşdirir və epistemologiya adlandırılan fənnin imkanları haqqında başqa təsəvvürün, biliyin və idrakın başqa cürə başa düşülməsinin zəruriliyini müəyyən edir.

Qeyd edək ki, biz qeyri-klassik epistemologiya problemlərinin işlənib hazırlanmasının tərəfdarıyıq, lakin bununla belə, biz klassik fəlsəfənin tematikasını inkar etmirik. Biz bunu onun işlənib hazırlanmasının – müasir sosial, mədəni və elmi reallığı nəzərə almaqla – yeni vasitəsi kimi təqdim edirik.

Qeyd edilməlidir ki, klassik epistemoloji tematikanın yenidən başa düşülməsi prosesində epistemologiyada çoxlu yeni problemlər meydana gəlir, onun istifadə imkanları olduqca genişlənir. Bu barədə V.A.Lektorski və V.S.Şviryov, İ.T.Kasavin (Касавин И.Т., Лекторский В.А., Швиров В.С. Рациональность как ценность культуры. 2005: №4) dəfələrlə yazmışlar.

Bu kontekstdə klassik və qeyri-klassik epistemologiyanın geniş başa düşülməsi baxımından bir qədər mülahizə söyləmək lazım gəlir. Bunu qeyd etməyi vacib sayırıq ki, biz epistemologiya deyərkən fəlsəfə tarixində yer almış epistemologiya barədə bütün deyilənləri nəzərdə tutmuruq. Tədqiqatımızda belə bir ideyadan çıxış edirik ki, klassik epistemologiya yalnız XVII əsrdə meydana gəlmişdir. Həmin dövrdə məlum "epistemoloji dönüş"dən sonra, nəzəri-idraki tematika fəlsəfə üçün mərkəzi problem olmuş, epistemologiya özü isə "birinci fəlsəfə" rolunu oynamağa başlamışdır. Klassik epistemoloji fikirlər F.Bekonun, R.Dekartın, C.Berklinin əsərlərində mühüm fəlsəfi problematika kimi işlənmişdir.

Bunu da qeyd edək ki, XVII əsrə qədər epistemoloji tematika ontoloji problemlərə tabeçilik zəminində işlənmişdir. Hesab edirik ki, klassik epistemologiya deyərkən məhz XVII əsrdə meydana gəlmiş, dövrün nəzəri tələbindən irəli gələr epistemologiya tematikasını nəzərdə tutmaq lazımdır, təcrübə göstərir ki, onun bu günə kimi öyrənilməmiş xüsusiyyətlərinin tədqiqi mühüm metodoloji əhəmiyyətə malikdir.

Həmin dövrdə işıq üzü görmüş əsərlərin adına diqqət yetirək: "Dekartın "Əqli idarə etməyin qaydaları", Lokkun "İnsanın dərrakə təcrübəsi", Leybnitsin "İnsan zəkasının yeni təcrübəsi haqqında", C.Berklinin "İnsan biliyinin başlanğıcları haqqında risalə", D.Yumun "İnsan təbiəti haqqında risalə", Kantın "Xalis zəkanın tənqidi". Bu əsərlər Yeni dövrdə

"epistemoloji dönüşün" başlanmasından, idrak haqqında təlimin başlanğıc fəlsəfi fənnə çevrilməsindən xəbər verirdi.

O dövrün mütəfəkkirləri hesab edirdilər ki, insanın mövcud olduğu dünya, bəşəriyyətin tarixi sonsuz və olduqca rəngarəngdir və onu dərk etmək üçün bəşəriyyətin nə vaxtı, nə də gücü çatmaz. Lakin dünyanın dərk olunması aləti varsa, o da insanın idraki hissi və zəkasıdır, idraki qabiliyyəti və onun hüdudlarının dərk edilməsidir. Altıcildlik "İngiltərənin tarixi" əsərinin müəllifi D.Yum hesab edirdi ki, insan təbiətini öyrənməklə biz hər şeyə qalib gələ bilərik. (Юм Д. Трактат о человеческой природе. 1995: стр.49-50)

"Epistemoloji dönüş" tədqiqatçıya və analitika iki əsas metodoloji idrak yolunu göstərmiş oldu: skeptik epistemologiyanın ən tanınmış tərəfdarı R.Dekart elan etmişdi ki, radikal şübhədən başlamaq lazımdır, əgər biz sübut etməsək ki, nəyisə tam mötəbərliklə bilirik, biz deyə bilmərik ki, dünyada nə isə real bir şey mövcuddur, bu, bizə iblisin təlqin etdiyi fantaziya, yuxu, yaxud xülya deyildir. Müasir dildə bunu belə başa düşmək olar: bəlkə biz "virtual reallıqda yaşayırıq?". Lakin bu cərəyanın sonrakı nümayəndələri, xüsusilə Yum, belə qərara gəlmişdilər ki, ümumiyyətlə, skeptizmi aradan qaldırmaq mümkün deyildir. Bundan əlavə, universal skeptisizm mühitində biz hətta nəyə şübhə etməyimizi bilməliyik, çünki şübhə və onun predmetinin özü də hansısa bilikdir.

Başqa bir yolu tənqidi epistemologiya göstərir. Əslində, hər bir fəlsəfə ənənəyə tənqidi, ona inam göstərməməkdən başlayır. Belə halda epistemologiya adi sağlam düşüncədə olan biliyin tənqidi kimi başa düşülürdü. Ona görə də epistemologiyada xülya və reallıq, fikir və bilik probleminin izahı başlıca məsələdir. Vaxtilə bu tematikanı Platon "Teetet" dialoqunda işlətmişdir. Nəyi bilik hesab etmək olar? Aydındır ki, bu hamı tərəfindən qəbul edilmiş fikir ola bilməz, çünki o, ümumi yanlış ola bilər, bu, sadəcə fikir də ola bilməz, elə bir fikir ki, real vəziyyətə uyğun gəlsin (yəni həqiqi mülahizə), çünki mülahizənin məzmunu ilə reallıq arasında uyğunluq xalis təsadüf ola bilər. Məsələn, Platon belə bir nəticəyə gəlmişdir ki, bilik yalnız mülahizənin məzmununun reallığa uyğun gəlməsini deyil, həmçinin mülahizənin əsaslandırılmasını nəzərdə tutur.

Beləliklə, yeni dövrdə epistemologiya müəyyən bilik idealı mövqeyindən, hər şeydən əvvəl, təşəkkül tapmış metafizik bilik sistemlərinin tənqidi kimi çıxış edir. Məsələn, Kantın fəlsəfi sisteminin əsasında yerləşən epistemologiya tənqidi epistemologiya adlanır.

Qərb fəlsəfəsinin mühüm dəyərlərindən biri budur ki, filosofların bütün tədqiqatlarının mərkəzində subyektin təhlili durmuşdur. Məsələn, Dekartın fikrincə, subyekt elə bir bazisdir ki, onun üzərində bilik sistemini qurmaq olar, buna görə "mən"im şüurumdan kənarda yerləşən aləmə həmişə şübhə etmək mümkündür.

Qeyd edək ki, klassik epistemologiya məhz Yeni dövr elminin meydana gəlməsilə yaranmışdır. Lakin epistemologiyanın bu dövrdə formalaşması həm də onun tərəfindən elmin legitimliyinin təsdiqi idi.

Zaman keçdikcə, XX əsrin son onilliyində qeyri-klassik epistemologiya təşəkkül tapmağa başlamışdır. Həmin dövrdə epistemologiyanın tematikası müasir mədəniyyətdəki irəliləyişlə və insan haqqında yeni dünyagörüşün formalaşması ilə bağlı olmuşdur. Lakin bununla belə xüsusi qeyd olunmalıdır ki, söhbət fəlsəfi tənqiddən imtina edilməsindən getmir. Söhbət ondan gedir ki, fundamental faktı başa düşmədən idrakı sıfırdan başlamaq olmaz.

İnam və bilik heç də bir-birlərini mütləq inkar etmirlər. Hər halda biz hesab edirik, nə qədər ki, bilik, reallıq, həqiqət, rasionallıq, idrak fəaliyyəti subyekti ilə bağlı problemlər mövcuddur, yəni epistemologiyada bir elm sahəsi kimi bağlı məsələlər aktuallığını itirməyib, fəlsəfə həmişə mövcud olacaqdır. Lakin praktikanın özü də göstərir ki, qeyri-klassik fazaya keçid heç də klassik epistemologiyanın prinsiplərinin inkarı deyildir. İdeya bundan ibarətdir ki, hər bir bilik əsaslandırılmalıdır, bu kontekstdə qeyriklassik epistemologiya nəinki epistemologiyanın inkişafında yeni mərhələdir, həmçinin reallığın və insanın mahiyyətinin

anlamının yeni vasitəsidir. Bu o deməkdir ki, biliyin, reallığın, şüurun, biliklə fəaliyyətin əlaqəsi, biliklə kommunikasiyanın münasibətləri dəyişir, insan sanki yeni idrak orbitinə çıxır.

Deyilənlər bizə tarixin epistemoloji xüsusiyyətləri barədə müəyyən mülahizələr söyləməyə əsas verir. Ənənəvi epistemologiya müstəsna olaraq təbiət elmlərinin məntiqi problemlərilə məşğul olur və praksiologiya elmi sahəsilə qətiyyən maraqlanmırdı. Son nəticədə sosiologiya elmi meydana gəlir.

Gələcək hadisələrin spesifik anlamında, bir qayda olaraq, iki tipin həqiqətə uyğunluğunu, bənzərliyini müəyyən etmək olar. Birincisi, nəzərdən keçirilən nəticənin hazırlanmasında iştirak edə biləcək, yaxud artıq iştirak edən faktorların sayılması ilə bağlıdır. İkincisi, nəticənin hazırlanmasında hər bir faktorun çəkisinin müəyyənləşdirilməsinə aiddir. Lakin proqnozların dəqiqliyi, yaxud qeyri-dəqiqliyi sonuncunun qiymətləndirməsindən asılıdır. Əvvəlcədən bildirilənlərin etibarsızlığı əsasən ikinci problemin aydın olmamasından asılıdır.

Bu məsələ gələcək hadisələrin proqnozlaşdırılmasını təşkil edərkən çətinliklər yaradır. Tarixçilər tərəfindən hadisələrin retrospektiv nəzərdən keçirilməsi zamanı da bu məsələ heç də az çətinliklər yaratmır. Dövlət xadimi, siyasətçi üçün gələcək hadisənin baş verməsinə kömək edəcək bütün faktorları bilmək kifayət deyil. İrəlini düzgün görmək üçün onlar həmçinin hər bir faktorun verdiyi töhfənin və həmin faktorun hərəkət etdiyi anı da düzgün görməlidirlər. Sonradan isə bu hadisəni retrospektiv təhlil və izah edən tarixçilər də həmin çətinliklə üzləşəcəklər, bu, labüd prosesdir.

Alman sosioloqu Maks Veber göstərirdi ki, hər bir elmi model biliyə söykənir. (Гайденко П.П. Давыдов Ю.Н. История и рациональность. 1991: стр.50-62) Bunu qeyd etmək istərdik ki, nə qədər fəlsəfə mövcuddur, biliyin, reallığın, həqiqətin, rasionallığın, idrak fəaliyyəti subyektinin, yəni epistemologiyanı yaradıb quran məsələlər həmişə qızğın müzakirə olunacaqdır.

Bizə elə gəlir ki, müasir epistemologiya həm adi həyatda, həm də elmi praktikada baş verən idrakın təcrübəsini, biliyin mötəbərliyini çox ciddi nəzərə almalıdır. Müasir empirik idraki praktikanın çıxış etdiyi ideya, platforma bundan ibarətdir ki, fikir və bilik həmişə fərqlənirlər və əsaslandırılmamış bilik mümkün deyildir.

Tarixçinin dünyagörüşü baxımından bir məsələ də öz aktuallığını saxlamaqdadır. Müasir dünyada yeni informasiya texnologiyalarının və telekommunikasiya vasitələrinin inkişafı ilə əlaqədar inam və biliyin fərqləndirilməsi problemi bir sıra hallarda çətin həll olunur. Hadisələrin araşdırılması prosesində informasiya cəmiyyəti bəzi hallarda dezinformasiya cəmiyyəti təəssüratını bağışlayır. Lakin bu problemi həll olunmalıdır, çünki əks halda insan şəxsi və sosial oriyentasiyanı və bununla da öz identikliyini itirmiş olur. Belə bir sosial ovqat tədqiqatçı tarixçinin də yaradıcılığına təsir göstərir. Bu özü də sosial epistemologiyanın problemlərindən biridir. Lakin praktika göstərir ki, "günahsız" bilik də yoxdur, o, yeni kontekstdə təshih oluna, müəyyən çalarlarında dəyişilə bilər. Məsələn, Leninin şərhində verildiyi inikas nəzəriyyəsi bu gün haqlı olaraq tənqid olunur. Belə bir nəzəriyyə, hər şeydən, əvvəl, mötəbər biliyin əldə edilməsinə mane olur, bu isə tarixçinin tədqiq etdiyi materialın obyektiv araşdırılmasına ziyan vurur.

Qərb analitik fəlsəfəsində (1950-1970-ci illərdə) "linqvistik dönüşdən" ciddi söhbətlər getmiş, diskussiyalar olmuşdur. Bu "dönüş" ruhunda epistemoloji problematikada təqdim edilmişdi. Əslində bu, mahiyyətcə epistemologiyanın ləğv olunmasına yönəlmişdi, çünki burada başlıca məsələ dil fəlsəfəsinin problemləri idi, dildə ifadə olunmayan (məs. qavrama, təfəkkür aktları və s.) fəlsəfi tədqiqatlarda mühüm sayılmırdı.

Bu gün isə tarixin nəzəri problemləri üçün vacib olan "koqnitiv" və "epistemoloji dönüşə" üstünlük verilir.

Bir sözlə, epistemologiyanı məhz bilik, onun əldə edilməsi və əsaslandırılması maraqlandırır. Ümumiyyətlə, bu gün əvvəllər mümkün olmayan fənlər, məsələn, koqnitiv

neyrologiya, koqnitiv etologiya, bioloji təkamülün koqnitiv nəzəriyyəsi daha mühüm rol oynayır. Epistemologiyanın problematikası da yeniləşir: biliyin reallığın, şüurun, biliklə fəaliyyətin münasibəti, biliyin və kommunikasiyanın anlamı dəyişir.

Qeyri-klassik epistemologiya nəinki epistemologiyanın inkişafında yeni mərhələdir, həmçinin reallığın və insanın başa düşülməsinin mötəbər vasitəsidir. Bu elm sahəsi müasir sosiomədəni və tarixi proseslərin anlaşılması üçün əhəmiyyət kəsb edən yeni tədqiqat sahələri açır. Başqa sözlə, onun predmet sahəsi genişlənir.

Beləliklə, epistemologiya tarixin düzgün dərk edilməsində hansı xidməti göstərə bilər? Birincisi, bu elm sahəsi bəşər tarixi prosesinin mürəkkəb problemlərinin obyektiv dərkinə və açılmasına yönəlmişdir. O, tarixi hadisələrin istiqamətinin müəyyənləşməsində başlıca rol oynayan qüvvələrin fərqləndirilməsinə, ayrılmasına cəhd göstərir. İkincisi, o, metodoloji bazası sayəsində fərdlərin və fərdlər qruplarının nail olmaq istədikləri məqsədləri öyrənir, lakin tarixi prosesin məqsədi və mənasının hər cür qiymətləndirilməsindən imtina edir. O, intuisiyaya arxayın olmayaraq, tarixin elmi öyrənilməsinə, tarixlə fəlsəfənin ittifaqının möhkəmləndirilməsinə xidmət edir. Üçüncüsü, epistemologiya, öz şərhinin düzgünlüyünü tarixi faktlara əsaslanaraq sübut edir. Bu mənada epistemologiyanı diskursiv və elmi fənn adlandırmaq olar.

**ƏDƏBİYYAT**

Goldman A. Epistemology and Cognition. Cambridge. 1986, p.9

Тулмин С. Человеческое понимание. М., Прогресс. 1984, 327 с.

Поппер К. Эпистемология без познающего субъекта. //Поппер К. Логика и рост научного знания. М., «Прогресс», 1986, с.439-604.

Касавин И.Т., Лекторский В.А., Швиров В.С. Рациональность как ценность культуры. // Вит.РАН 2005, №4; Лекофский В.А. Эпитемология классическая и неклассическая. М., 2007; Касавин И.Т. Проблемы неклассической теории познания. СПб, 1999.

Юм Д. Трактат о человеческой природе. кн.1. О познании. М., «Мысль», 1995, с.49-50.

Гайденко П.П., Давыдов Ю.Н. История и рациональность. М., Изд-во полит. Литературы. 1991, с.50-62